# (10)
# XARİCİ ÖLKƏLƏRİN CİNAYƏT QANUNNERİCİLİYİ ÜZRƏ RÜŞVƏTXORLUQ CİNAYƏTLƏRİNƏ GÖRƏ MƏSULİYYƏTİN TƏNZİMLƏNMƏSİ MƏSƏLƏLƏRİ

**Əlirza Kiyani Şahmirsi Imaməli oğlu**[48]

XÜLASƏ

Məqalədə bir sıra xarici ölkələrin (Rusiya, Almaniya, Türkiyə, Ukrayna, Özbəkistan və s.) cinayət qanunnericiliyi üzrə xarici ölkələrin cinayət qanunnericiliyi üzrə rüşvətxorluq cinayətlərinə görə məsuliyyətin tənzimlənməsi məsələləri tədqiq edilir. Bu zaman qeyd olunan cinayətlə bağlı xarici ölkələrin qanunnericiliyinin müsbət cəhətlərindən istifadə edilməsinin xüsusi əhəmiyyətə malik olduğu göstərilir. Azərbaycan Respublikasının CM-in münafiq maddələrilərinin təkmilləşdirilməsi üzrə təkliflər irəli sürülür.

Yekunda tədqiq edilən məsələ ilə bağlı nəticələr çıxarılır.

Hüquq sahəsi daxil olmaqla dövlətlərin ictimai münasibətlər sistemində baş verən dəyişikliklər onların hər biri üçün müstəsna dərəcədə mühüm əhəmiyyətə malikdir. Dövlətlərin hüquq sahəsində əməkdaşlığı, qanun yaradıcılığı və tətbiqi sahəsində bir-birinin təcrübəsini nəzərə alması zəruridir və bu, qarşılıqlı surətdə zənginləşməyə xidmət edir. Məhz bütün bunlara görə xarici ölkələrin cinayət qanunvericiliyinin öyrənilməsi və müqayisəli təhlili də zəruri və əhəmiyyətli bir işdir. Bununla bağlı fransız alimi M.Ansel haqlı olaraq qeyd etmişdir ki, hüquqşünasın xarici ölkələrin hüquq təcrübəsini öyrənməsi onun öz ölkəsinin hüququnu daha yaxşı bilməsinə kömək edir, onu öz ölkəsinin hüququnu hətta çox yaxşı bilməklə əldə edə bilməyəcəyi ideya və dəlillərlə silahlandırır (3, 38). Bu baxımdan xarici ölkələrin rüşvətxorluq haqqında cinayət qanunvericiliyinin öyrənilməsi həm elmi, həm də praktik cəhətdən aktual məsələdir. Belə ki, rüşvətxorluqla bağlı araşdırmalarda müqayisəli tədqiqatların aparılmasının, xarici ölkələrin qanunvericiliklərinin öyrənilməsinin, onların qiymətli cəhətlərinin və qüsurlarının aşkar edilməsinin xüsusi əhəmiyyəti vardır. Belə ki, 1) xarici ölkələrin cinayət məcəllələrində rüşvətxorluq cinayətləri bağlı nəzərdə tutulan hüquq normalarının öyrənilməsi cinayət hüququnun tədqiq edilən normaları ətrafında biliklərin daha da dərinləşdirilməsinə kömək edir; 2) rüşvətxorluqla bağlı normaların təkmilləşdirilməsi üzrə ən yaxşı hüquqi qərarların qəbul edilməsi üçün, rüşvətxorluqla bağlı milli qanunvericiliyin sonrakı təkmilləşdirilməsi və yeniləşməsi üçün əsas yaradır; 3) hazırkı dövrdə rüşvətxorluqla bağlı milli qanunvericiliklərin bir-birinə yaxınlaşdırılması kimi mühüm problemin həllinə kömək edir.

Əvvəlcə MDB ölkələrinin cinayət qanunvericiliyinin rüşvətxorluqla bağlı normalarına nəzər salaq. Rusiya Federasiyasının 1996-cı il Cinayət Məcəlləsinin 290-cı maddəsində rüşvət almaya görə, 291-ci maddəsində rüşvət verməyə görə məsuliyyət müəyyən edilir. Qeyd edək ki, Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 290-cı maddəsinin birinci hissəsinin və 291-ci maddəsinin birinci hissəsinin dispozisiaysı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 311.1-ci və 312.1-ci maddələrinin ilkin redaksiyalarının dispozisiyası ilə tamamilə üst-üstə düşür. Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 290-cı maddəsinin ikinci hissəsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 311.2-ci maddəsində göstərilən tövsifedici əlamətlər eynidir: vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə rüşvət alma. Lakin Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 290-cı

48 Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq Institutunun dissertantı, Bakü/AZERBAYCAN.

maddəsinin üçüncü hissəsində göstərilən tövsifedici əlamət (Rusiya Federasiyasında və ya onun subyektlərində dövlət vəzifəsi tutan şəxs, habelə yerli özünüidarə orqanı başçısı iərəfindən rüşvət alma) Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 311-ci maddəsində yoxdur. Rusiya Federasiyasının Cinayət Məcəlləsinin ilkin redaksiyasının 290-cı maddəsinin dördüncü hissəsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 311.3-cü maddəsində göstərilən xüsusilə tövsifedici əlamətlər eynidir: rüşvət almanın qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi; təkrar törədilməsi; aülli miqdarda törədilməsi; hədə-qorxu tətbiq olunma törədilməsi. 8 dekabr 2003-cü il tarixli federal qanunla Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 290-cı maddəsinin dördüncü hissəsində rüşvət almanın təkrar törədilməsi xüsusilə tövsifedici əlaməti haqlı olaraq qanundan çıxarıldı. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 311.3-cü maddəsində həmin xüsusilə tövsifedici əlamət isə indiyə qədər qanunda qalır.

Qeyd edək ki, ilkin redaksiya Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 291-ci maddəsinin birinci hissəsinin dispozisiyası və ikinci hissəsi (tövsifedici əlamətlər – vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə və ya təkrar rüşvət vermə), habelə qeydi müvafiq olaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 312.1-ci maddəsinin dispozisiyası və 312.2-cü maddəsi, habelə qeydi tamamilə üst-üstə düşürdü. Sonralar Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 312.1-ci maddəsinin dispozisiyası dəyişdirildi, Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 291-ci maddəsinin ikinci hissəsindən təkrar rüşvət vermə tövsifedici əlaməti çıxarıldı.

Ukraynanın Cinayət Məcəlləsinin "Xidməti fəaliyyət sahəsində olan cinayətlər" adlanan 19-cu bölməsinin 368-ci maddəsində rüşvət almaya, 369-cu maddəsində rüşvət verməyə, 370-ci maddəsində rüşvətə təhrikə görə məsuliyyət müəyyən edilmişdir. Cinayət Məcəlləsinin 368-ci maddəsinin birinci hissəsində vəzifəli şəxs tərəfindən rüşvət verənin yaxud üçüncü şəxsin maraqları naminə ona verilmiş hakimiyyətdən və ya xidməti mövqedən istifadə etməklə hər hansı hərəkəti yerinə yetirmək və ya yerinə yetirməmək müqabilində hər hansı şəkildə rüşvət alma cəzalandırılan əməldir. 368-ci maddənin ikinci hissəsində tövsifedici əlamətlər kimi külli miqdarda rüşvət alma, məsul vəzifə tutan şəxs tərəfindən rüşvət alınması, qabaqcadan əlbir olan bir qrup vəzifəli şəxs tərəfindən rüşvət alınması, təkrar rüşvət alma, hədə-qorxu tətbiq etməklə rüşvət alınması, həmin maddənin üçüncü hissəsində tövsifedici əlamətlər kimi xüsusilə külli miqdarda rüşvət alma, xüsusi məsul vəzifə tutan şəxs tərəfindən rüşvət alınması göstərilmişdir. 368-ci maddənin üçüncü hissəsində rüşvət verən şəxsin cinayət məsuliyyətindən azad edilməsini müəyyən edən norma təsbit edilmişdir. Bu, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 312-ci maddəsinin qeydində verilən normaya uyğundur. 369-cu maddədə rüşvət verməyə anlayış verilmir və onun yalnız bir tövsifedici əlaməti – təkrar rüşvət vermə göstərilir.

Özbəkistan Respublikasının 1994-cü il Cinayət Məcəlləsinin 210-cu maddəsində rüşvət almağa, 211-ci maddəsində rüşvət verməyə, 212-ci maddəsində isə rüşvətxorluqda vasitəçiliyə görə məsuliyyət müəyyən edilmişdir. Cinayət Məcəlləsinin 210-cu maddəsinin birinci hissəsinin dispozisiyasında rüşvət alma vəzifəli şəxsin rüşvət verənin maraqları naminə öz vəzifə mövqeyindən istifadə etməklə yerinə yetirməli olduğu və ya yerinə yetirə bildiyi müəyyən hərəkətləri yerinə yetirmək və ya yerinə yetirməmək müqabilində şəxsən və ya vasitəçilər vasitəsilə qeyri-qanuni olması qabaqcadan bilinən maddi nemətləri alınması və ya maddi xarakterli mənfəət əldə edilməsi kimi müəyyən edilir.

Cinayət Məcəlləsinin 210-cu maddəsinin ikinci hissəsində rüşvət almanın aşağıdakı tövsifedici əlamətləri müəyyən edilmişdir: rüşvətin təkrar, xüsusilə təhlükəli residivist, əvvəllər rüşvət alma və ya rüşvət vermə cinayəti törətmiş şəxs tərəfindən alınması; külli miqdarda alınması, hədə-qorxu gəlmək yolu ilə alınması; qabaqcadan əlbir olan bir qrup vəzifəli şəxs tərəfindən alınması.

Rüşvət almanın aşağıdakı xüsusilə tövsifedici əlamətləri müəyyən edilmişdir: rüşvətin külli miqdarda alınması; rüşvətin məsul vəzifəli şəxs tərəfindən alınması; rüşvətin mütəşəkkil dəstənin maraqları naminə alınması.

Rüşvət almanın sadə halına görə azadlıqdan məhrum etmə cəzasının müddəti beş ilədək, tövsifedici ədamətlərinə görə beş ildən on ilədək, xüsusilə tövsifedici əlamətlərinə görə on ildən on beş ilədək müəyyən edilmişdir. Qeyd edək ki, Azərbaycan Respublikasının CM-in 311-ci maddəsində rüşvət almaya görə azadlıqdan məhrum etmə cəzasının müddəti müvafiq olaraq dörd ildən səkkiz ilədək, beş ildən on ilədək, səkkiz ildən on iki ilədək təşkil edir.

Özbəkistan Respublikasının Cinayət Məcəlləsinin 211-ci maddəsinin birinci hissəsinin dispozisiyasında rüşvət vermə vəzifəli şəxsə onun rüşvət verənin maraqları naminə öz vəzifə mövqeyindən istifadə etməklə yerinə yetirməli olduğu və ya yerinə yetirə bildiyi müəyyən hərəkətləri yerinə yetirməsi və ya yerinə yetirməmsi müqabilində şəxsən və ya vasitəçilər vasitəsilə qeyri-qanuni olması qabaqcadan bilinən maddi nemətlər və ya maddi xarakterli mənfəət verilməsi kimi müəyyən edilir.

Cinayət Məcəlləsinin 212-ci maddəsinin ikinci hissəsində rüşvət almanın aşağıdakı tövsifedici əlamətləri müəyyən edilmişdir: rüşvətin təkrar, xüsusilə təhlükəli residivist, əvvəllər rüşvət alma və ya rüşvət vermə cinayəti törətmiş şəxs tərəfindən verilməsi; rüşvətin külli miqdarda verilməsi.

Rüşvət vermənin aşağıdakı xüsusilə tövsifedici əlamətləri müəyyən edilmişdir: rüşvətin külli miqdarda verilməsi; rüşvətin mütəşəkkil dəstənin maraqları naminə verilməsi; rüşvətin məsul vəzifəli şəxs tərəfindən verilməsi.

Rüşvət verməninin sadə halına görə azadlıqdan məhrum etmə cəzasının müddəti üç ilədək, tövsifedici əlamətlərinə görə üç ildən beş ilədək, xüsusilə tövsifedici əlamətlərinə görə beş ildən on ilədək müəyyən edilmişdir. Qeyd edək ki, Azərbaycan Respublikasının CM-in 312-ci maddəsində rüşvət verməninin sadə halına görə qeyd edilən cəzanın müddəti iki ildən beş ilədək, tövsifedici əlamətlərinə görə dörd ildən səkkiz ilədək təşkil edir. Göründüyü kimi, həm rüşvət almanın, həm də rüşvət verməninin tövsifedici halların sanksiyasında azadlıqdan məhrum etmə cəzasının yuxarı həddini Özbəkistan qanunvericisi Azərbaycan qanunvericisi ilə müqayisədə yüksək müəyyən etmişdir.

Özbəkistan Respublikasının Cinayət Məcəlləsinin 211-ci maddəsində də rüşvət verənin məsuliyyətdən azad edilməsini müəyyən edən rəğbətləndirici norma vardır. Belə ki, rüşvət verən şəxs tətbiq edilən hədə-qorxu nəticəsində rüşvət verdikdə və ya həmin şəxs cinayətkar hərəkətlər başa çatdıqdan sonra cinayət barəsində könüllü xəbər verərsə, səmimi peşman olarsa və cinayətin açılmasına fəal kömək edərsə məsuliyyətdən azad edilir.

Özbəkistan Respublikasının Cinayət Məcəlləsinin 212-ci maddəsində rüşvətxorluqda vasitəçiliyə görə məsuliyyət müəyyən edilmişdir. Həmin maddədə rüşvətxorluqda vasitəçilik rüşvət alma və ya rüşvət vermə barədə razılıq əldə edilməsinə yönəlmiş fəaliyyət, habelə maraqlı şəxslərin tapşırığı ilə rüşvəti bilavasitə vermə kimi müəyyən edilir. Rüşvətxorluqda vasitəçiliyin tövsifedici və xüsusilə tövsifedici əlamətləri rüşvət alma və rüşvət verməninin müvafiq əlamətlərinə uyğundur. Bundan başqa, CM-in 212-ci maddəsində rüşvətxorluqda vasitəçilik edən şəxsin məsuliyyətdən azad edilməsini nəzərdə tutan norma təsbit edilmişdir. Bu norma rüşvət verən şəxsin məsuliyyətdən azad edilməsini müəyyən edən normaya uyğun gəlir.

Indi isə uzaq xaric ölkələrin cinayət qanunvericiliyində rüşvətxorluq cinayətlərinə görə məsuliyyətin tənzimlənməsi məsələsini nəzərdən keçirək. Əvvəlcə Almaniyadan başlayaq. Almaniya Federativ Respublikasının 13 noyabr 1998-ci il redaksiyasında Cinayət Məcəlləsində rüşvətxorluq cinayətlərinə görə məsuliyyətin təsbit edilməsi məsələsini nəzərdən keçirək. Rüşvətxorluq cinayətlərinə görə məsuliyyət müəyyən edən normalar AFR-in Cinayət Məcəlləsinin Xüsusi hissəsinin otuzuncu bölməsində (“Qulluqda cəzalanan əməllər”) verilmişdir. Həmin bölmənin 331-ci paraqrafında “Mənfəət əldə etmə”yə görə məsuliyyət təsbit edilmişdir. Həmin paraqrafın birinci abzasında deyilir:

“Vəzifəli şəxs və ya xidməti vəzifəni yerinə yetirməyə xüsusi səlahiyyət verilmiş şəxs xidməti borcunu yerinə yetirməyə görə özü və ya üçüncü şəxs üçün mənfəət tələb edərsə, onu qəbul etmək barədə razılığa gələrsə və ya qəbul edərsə üç ilədək müddətə azadlıqdan məhrum etmə və ya cərimə ilə cəzalandırılır.

Hakim və ya münsiflər hakimi cavab xidməti qismində özü və ya üçüncü şəxs üçün mənfəət tələb edərsə, müəyyən xidməti hərəkət etdiyinə və ya gələcəkdə edəcəyinə görə müəyyən xidməti hərəkət edərsə beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya cərimə ilə cəzalandırılır. Bu cinayəti törətməyə cəhd də cəzalandırılandır.

Şəxs özünün tələb etmədiyi mənfəəti qəbul etməyə razılaşansa və ya qəbul edərsə və səlahiyyətli orqan öz səlahiyyəti çərçivəsində bu mənfəəti qəbul etməyə qabaqcadan razılıq verərsə və ya şəxs iənfəətin qəbul edilməsini sanksiyalaşdıran orqana dərhal məlumat verərsə cəzalandırılmır".

AFR-in Cinayət Məcəlləsinin 332-ci maddəsinin 1-ci abzasında deyilir:

"Vəzifəli şəxs və ya xidməti vəzifəni yerinə yetirməyə xüsusi səlahiyyət verilmiş şəxs xidməti hərəkət etdiyi və ya gələcəkdə edəcəyi və bununla xidməti vəzifəsini pozması və ya pozacağı müqabilində özü və ya üçüncü şəxs üçün mənfəət tələb edərsə, onu qəbul etmək barədə razılığa gələrsə və ya qəbul edərsə altı aydan beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Cinayət az ağır olan hallarda üç ilədək müddətə azadlıqdan məhrum etmə və ya cərimə ilə cəzalandırılır. Bu cinayəti törətməyə cəhd də cəzalandırılandır.

AFR-in Cinayət Məcəlləsinin 332-ci maddənin 2-ci abzası:

"Hakim və ya münsiflər hakimi hər hansı məhkəmə hərəkəti etdiyi və ya edəcəyi və bununla hakimlik vəzifəsini pozması və ya pozacağı müqabilində özü və ya üçüncü şəxs üçün mənfəət tələb edərsə, onu qəbul etmək barədə razılığa gələrsə və ya qəbul edərsə bir ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Cinayət az ağır olan hallarda altı aydan üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

AFR-in Cinayət Məcəlləsinin 333-cü maddəsi:

"Vəzifəli şəxsə və ya ictimai vəzifəni yerinə yetirməyə xüsusi səlahiyyət verilmiş şəxsə və ya hərbi qulluqçuya vəzifə borcunu yetirməsi müqabilində onun özü, üçüncü şəxs üçün mənfəət təklif edən, vəd edən və ya verən şəxs üç ilədək müddətə azadlıqdan məhrum etmə və ya cərimə ilə cəzalandırılır.

Hakimə və ya münsiflər hakiminə məhkəmə hərəkəti etdiyi və ya edəcəyinə cavab xidməti qismində onun özü, üçüncü şəxs üçün mənfəət təklif edən, vəd edən və ya verən şəxs beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya cərimə ilə cəzalandırılır.

Səlahiyyətli orqan öz səlahiyyəti çərçivəsində və ya qabaqcadan şəxsə mənfəəti qəbul etməyə icazə verərsə və ya mənfəəti qəbul etmiş şəxsin dərhal verdiyi ərizə əsasında onun qəbul edildiyini sanksiyalaşırarsa, əməl cəzalandırılmır.

Türkiyə Respublikasının 2004-cü il sentyabrın 26-da qəbul edilmiş və 2005-ci il aprelin 1-də qüvvəyə minmiş Cəza Qanunu iki kitab (birinci kitab Ümumi hissəni, ikinci kitab Xüsusi hissəni əhatə edir), altı bölmə və 36 fəslə bölünən 345 maddədən ibarətdir. Cəza Qanununun ikinci kitabının dördüncü bölməsinin («Millətə və dövlətə qarşı edilən cinayətlər») birinci fəslinin («Dövlət hakimiyyətinin təhlükəsizliyi və fəaliyyəti əleyhinə edilən cinayətlər») 252-ci maddəsində («Rüşvət») rüşvətxorluq cinayətlərinə görə məsuliyyət müəyyən edilmişdir. Həmin maddənin birinci hissəsinə görə rüşvət alan vəzifəli şəxs dörd ildən on iki ilədək müddətə həbs cəzasına məhkum edilir. Rüşvət verən şəxs üçün də həmin cəza nəzərdə tutulur. Rüşvət barədə razılığa gəlmə də başa çatmış cinayət kimi cəzalandırılır.

Türkiyə Cəza Qanununun 252-ci maddəsinin ikinci hissəsinə görə rüşvət alan və ya bu barədə razılığa gələmiş məhkəmə işçisi, hakim, ekspert, notarius və ya andlı maliyyə müşavirinin cəzası birinci hissədə göstərilən cəzanın üçdə birindən yarısına qədər artırılır. 252-ci maddənin üçüncü hissəsində rüşvətin anlayışı verilir. Rüşvət dövlət qulluqçusunun öz vəzifə borclarının ziddinə olaraq bir işi görməsi və ya görməməsi müqabilində başqa şəxslə razılığa gəldiyi çərçivədə mənfəət əldə etməsidir.

Türkiyə Cəza Qanununun 253-cü maddəsinə görə rüşvət cinayətinin törədilməsi nəticəsində qanunsuz gəlir əldə etmiş hüquqi şəxslər barəsində onlara müvafiq cəza tədbirləri tətbiq edilir.

Türkiyə Cəza Qanununun 254-cü maddəsində rüşvət alan, rüşvət verən və bu cinayətlərin törədilməsində iştirak edən şəxslərin cəzadan azad edilməsinin mümkünlüyü barədə normalar təsbit edilmişdir. Həmin maddənin birinci hissəsinə görə rüşvət alan şəxs

aldığı rüşvəti istintaq başlamazdan qabaq müvafiq orqanlara verərsə, həmin şəxs cəzadan azad edilir. rüşvət alma barəsində başqa şəxslə razılığa gəlmiş dövlət qulluqçusu istintaq başlamazdan əvvəl bu barədə müvafiq orqanlara xəbər verdiyi halda da həmiş şəxsə rüşvət almaya görə cəza verilmir. 254-cü maddənin ikinci hissəsinə görə rüşvət verən və ya bu barədə dövlət qulluqçusu ilə razılığa gəlmiş şəxs tutduğu əməldən peşman olaraq istintaq başlamazdan əvvəl bu barədə istintaq orqanlarına xəbər verərsə rüşvət verməyə görə ona cəza verilmir, verdiyi rüşvət isə dövlət qulluqçusundan alınaraq ona qaytarılır. 254-cü maddənin üçüncü hissəsində rüşvətxorluq cinayətlərinin törədilməsində iştirak edən digər şəxslər tutduğu əməldən peşman olaraq istintaq başlamazdan əvvəl bu barədə istintaq orqanlarına xəbər verərsə törədilən cinayətə görə onlara cəza verilmir. Türkiyə Cəza Qanununun 254-cü maddəsinin dördüncü hissəsində göstərilir ki, bu maddənin müddəaları əcnəbi dövlət qulluqçularına rüşvət vermiş şəxslərə şamil edilmir.

Polşanın 1997-ci il (1 avqust 2001-ci ilə qədər olan dəyişiklik və əlavələrlə) Cinayət Məcəlləsinin 228-ci maddəsində vəzifəli şəxslərin öz vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə görə məsuliyyət müəyyən edilir. Həmin maddənin 1-ci paraqrafında göstərilir ki, vəzifə funksiyasını yerinə yetirməsi ilə bağlı əmlak və ya şəxsi mənfəət əldə edən yaxud belə mənfəəti tələb edən şəxs cəzalandırılır. Polşanın Cinayət Məcəlləsinin qeyd edilən normasında faktik olaraq rüşvət almanın sadə forması göstərilmişdir. Ancaq Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən fərqli olaraq cinayət məsuliyyəti təkcə müvafiq mənfəət əldə edildiyi halda deyil, həm də tələb edildiyi halda yaranır. Polşanın Cinayət Məcəlləsinin 228-ci maddəsinin 3-cü paraqrafında vəzifə mövqeyindən sui-istifadə etməklə və hər hansı xüsusi qaydanı pozmaqla rüşvət almağa görə məsuliyyət müəyyən edilir. Bu norma Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 311.2-ci maddəsində təsbit edilmiş normaya uyğundur. Polşanın CM-in 228-ci maddəsinin 5-ci paraqrafında xeyli miqdarda əmlak mənfəəti almağa və ya veiməyi vəd etməyə görə məsuliyyət müəyyə edilir.

Qeyd edək ki, Polşanın Cinayət Məcəlləsində vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə və hərəkətsizliyə görə rüşvət almayə görə cinayət məsuliyyəti müxtəlif maddələrdə müəyyən olunmuşdur. Qanunsuz hərəkətlərə görə cinayət məsuliyyəti Polşanın Cinayət Məcəlləsinin 228-ci maddəsində, qanunsuz hərəkətsizliyə görə isə 231-ci maddəsində təsbit edilmiş və vəzifə səlahiyyətini aşma cinayət tərkibi ilə birləşdirilmişdir. Zənnimizcə, belə formuləni uğurlu hesab etmək olmaz.

Hesab edirik ki, xarici ölkələrin rüşvətxorluqla bağlı cinayət qanunnericiliyinin müsbət cəhətlərindən Azərbaycan Respublikasının 1999-cu il Cinayət Məcəlləsinin müvafiq maddələrinin təkmilləşdirilməsində nəzərə alınması faydalı olardı.

Qeyd edək ki, rüşvətxorluqda vasitəçilik edən şəxsin törədilən cinayət barəsində müvafiq dövlət orqanına könüllü məlumat verdiyi halda onun məhkəmə tərəfindən cəzadan azad edilməsi rüşvətxorluq cinayətlərinin qarşısının alınmasına kömək edən amil ola bilər. Buna görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə rüşvətxorluqda vasitəçiliyə görə məsuliyyət müəyyən edən yeni 312-1-ci maddəsinə aşağıdakı redaksiyada qeydin əlavə edilməsi məqsədəmüvafiq olardı:

«Rüşvətxorluqda vasitəçiliyə, habelə rüşvət alınmasında və ya rüşvət verilməsində iştirakçılığa görə təqsirli olan şəxs törədilən cinayət barədə müvafiq dövlət orqanına könüllü məlumat verdikdə məhkəmə tərəfindən cəzadan azad edilir".

Zənnimizcə, rüşvətxorluqda vasitəçilikdə təqsirli olan şəxsin cəzadan azad edilməsinin mümkünlüyünü nəzərdə tutan normanın Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə rüşvətxorluqda vasitəçiliyə görə məsuliyyət müəyyən edən yeni 312-1-ci maddəsinə qeyd şəklində əlavə edilməsi zəruridir:.

«Rüşvətxorluqda vasitəçiliyə, habelə rüşvət alınmasında və ya rüşvət verilməsində iştirakçılığa görə təqsirli olan şəxs törədilən cinayət barədə müvafiq dövlət orqanına könüllü məlumat verdikdə məhkəmə tərəfindən cəzadan azad edilir".

## ISTIFADƏ EDILMIŞ ƏDƏBIYYAT

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Digesta, 2010.
2. Türk Ceza Kanunu. Ankara, Seçkin Yayınevm, 2009.
3. Ансель М. Методологические проблемы сравнительного права. Очерки сравнительного права. М., 1991.
4. Уголовный кодекс Польша. СПб.: Юридический центр Пресс, 2001.
5. Уголовный кодекс Республики Узбекистан. СПб.: Юридический центр Пресс, 2001.
6. Уголовный кодекс Российской Федерации. Москва: Проспект, КноРус, 2010.
7. Уголовный кодекс Украины. СПб.: Юридический центр Пресс, 2001.
8. Уголовный кодекс Федеративной республики Германия. СПб.: Юридический центр Пресс, 2002.
9.

**Əlirza Imaməli oğlu Kiyani**
**Azərbaycan Milli Elmlər Akademi- yasının Fəlsəfə, Sosiologiya və Hüquq Institutunun doktorantı**